# Rayon ərazisində reydlər davam etdirilir



5 yanvar 2021-ci il tarixində rayonda xüsusi karantin rejimi qaydalarının təmin olunması ilə bağlı mobil qruplar tərəfindən reydlər davam etdirilib. Reydlər zamanı əhalinin sıx olduğu məkanlarda, aptek və ticarət obyektlərində maarifləndirmə işi aparılaraq Operativ Qərargahın müəyyən etdiyi qərarlara uyğun tədbirlər həyata keçirmiş, vətəndaşlara sosial məsafənin saxlanılmasının və tibbi maskadan istifadənin vacibliyi izah edilmişdir. Gün ərzində ümumilikdə 136 ticarət obyektinə və 117 digər əhalinin daha çox müraciət etdiyi obyektlərə baxış keçirilib. Xüsusi karantin rejimi qaydalarını pozduğu üçün 6 nəfər rayon sakininə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə hər birinə 100 manat məbləğində cərimə olunmuşdur. Bu istiqamətdə tədbirlər davam etdirilir.

# Biganəlik hər zaman təhlükədir

Koronavirus hələ də bəşəriyyətin təhlükəsi olmaqdadır. Gözəgörünməz virus getdikcə daha yüksək sürət və aqressiv şəkildə insanları yoluxdurmaqda və can almaqda davam edir.



Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təmsilçisi David Nabarro demişdir ki, Avropada koronavirusun II dalğasının səbəbi yay aylarında buna lazımi hazırlığın olmaması və müvafiq infrastrukturun yaradılmaması idi. Əgər lazımi tədbirlər görülməsə və pandemiya nəzarət altına alınmazsa, müvafiq infrastruktur işləri aparılmasa, o zaman üçüncü dalğa qaçılmazdır.

ÜST-ün Azərbaycan ofisinin rəhbəri Hande Harmançı BMT-nin xəbərlər saytına müsahibəsində bildirib ki, vaksinlərin və dərmanların olmadığı vaxtda Azərbaycan regionda pandemiyanın qarşısını almaq üçün yeganə vasitələr olan epidemioloji və sosial tədbirlər görməyə başlayan ilk ölkələrdən biri olub. Bu tədbirlər sistemli xarakter daşıyır.

Xəstəliyin yeni dalğasına yol verməmək üçün bütün tələblər, o cümlədən şəxsi gigiyena, özünütəcrid, kütləvi toplantılara yol verməmək, məsafə saxlamaq zəruridir. Əgər virusun yayılmasının qarşısı alınmazsa fəsadları ağır ola bilər. Hər kəs xüsusi karantin rejiminin qaydalarına ciddi şəkildə riayət etməlidir. İnsanlar profilaktik tədbirlərə, sanitar normalara uyğun davranmasa, yoluxma halları da çoxalacaq.

Dövlət üzərinə düşəni edir, ancaq insanlar çalışmalıdır ki, pandemiyanın növbəti dalğasının başlanmasının qarşısını alsın. Buna isə karantin qaydalarına düzgün riayət etməklə nail olmaq olar.

Dövlət tərəfindən tətbiq olunan məhdudiyyətlər yalnız əhalini qorumaq üçündür.

Təhlükəyə qalib gəlmək üçün həm özümüz qaydalara əməl etməliyik, həm də, qaydaları pozanlara etiraz etməliyik. Tətbiq olunan qaydalara biganəlik hər kəsin həyati təhlükəsidir.

Biganəlik sonrakı ayrılıqların başlanğıcıdır. Ayrılıqlar həm müvəqqəti, həm də ömürlük ola bilir. Əlbəttə çətindir. Bu gün birgə görüşlərdən, toplantılardan uzaq olmaq, məsafə saxlamaq, doğmalar kimi görüşməmək, qismən yaşlı təbəqənin, xüsusilə məcbur olmadıqda ətraf mühitdə gəzib-dolaşmaması, özü-özünü qismən təcrid etmə- "evdə qal" prinsipi müvəqqəti ayrılıqlardır. Bu müvəqqəti ayrılıqları qəbul etməyən hər kəs evdə yaxud xəstəxanada nəfəs alması çətinləşdiyi üçün müalicə alarkən həkimlərin səylərinə rəğmən həyata dönə bilməməyin çətin və mümkünsüzlüyünü anlayırlar.

Bəzən isə bu haqda düşünməyə belə macal tapmadan əbədi ayrılırlar həyatdan.

Biganəliyin, laqeydliyin, xəstəliyə inamsızlığın və karantin qaydalarına uymamağın acı nəticələri yaşanılır. Bu xəstəliyi keçirən, əziyyət çəkən bir insan kimi, canlı şahid kimi deyə bilərəm ki, adi bir qripdir, qripə bənzəyir deməyin. Özünüzü özünüz üçün, əzizləriniz üçün qoruyun! Xəstəliyin sindromları haqda məlumatlı olmanız hər zaman məlumat verir, ona görə də xəstəliyi necə keçirməyim haqda söz demək istəmədim. Yalnız onu deyirəm ki, əzizlərimizdən, doğmalarımızdan əbədi ayrılmamaq üçün hamılıqla mübarizə aparaq; biz birlikdə güclüyük!

**Təranə HÜSEYNOVA,**
**Bakı şəhəri.**

# Xalqımızın həmrəyliyi zəfərin özülüdür

***Soydaşlarımız ölkəmizdən uzaqda yaşasalar da, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır.***

***Bu gün dünyada 50 milyondan çox azərbaycanlı yaşayır. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda sərhədlərin (SSRİ-İRAN sərhədləri) dağılması zamanı qoyuldu. Bu zaman İstanbulda keçirilən türkdilli xalqların konfransında dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verildi.***

***1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Heydər Əliyev dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi.***

***Hər il dekabrın 31-ni xalqımız, eləcə də, dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımız Dünya Azərbaycanlılarının Həmrəylik Gününü böyük həvəs və coşqu ilə qeyd edirdi.***

***Ancaq 2020-ci ilin məlum hadisələrinə görə həmrəylik günü əvvəlki təntənə ilə qeyd edilməmişdir. Bu ilki bayramda hər kəs zəfər bayramını qeyd etmiş və şəhidlərimizin xatirəsi anılmış, onların, qazilərimizin, eləcə də "Dəmir yumruq" hərəkatının iştirakçıları haqqında maraqlı xatirələr danışılmışdır.***

***Biz də vətəndən uzaqda yaşayan soydaşlarımızla əlaqə saxlamış və onlarla onlayn müsahibə aparmışıq.***

**Günay SƏLİMOVA,**
**Sankt-Peterburq şəhəri,**
**həkim.**



20 ildir Sankt-Peterburq şəhərində yaşayırıq. Azərbaycan diasporası milli bayramları həmişə mütəşəkkil şəkildə keçirir, ölkəmizə aid tədbirlər mütəmadi keçirilir. Həmçinin diaspora tərəfindən pulsuz konsertlər təşkil olunurdu.

Ölkəmizdən uzaqda yaşasa da Milli-vətənpərvərlik zəminində müxtəlif tədbirlər keçirilməsində azərbaycanlı gənclər, ziyalılar həmişə fəallıq göstərmişlər. Keçən ildən başlanan COVİD-19 koronavirus pandemiyası bütün dünyanı çalxaladı. Dünyanın hər yerində olduğu kimi, yaşadığımız şəhərdə də pandemiya ilə mübarizə aparılır və lazımi qanun-qaydalara riayət edilir. Tədbirlər onlayn şəkildə keçirilir. 2020-ci ilin 27 sentyabrında başlanan "Dəmir yumruq" hərakatı - erməni işğalçılarına qarşı əks-hücum müharibəsi bütün xalqı səfərbərliyə-həmrəyliyə səslədi, sanki Azərbaycan gəncləri könüllü olaraq torpaqlarımızın işğaldan təmizlənməsi üçün döyüşə yollandılar...

Gəncə faciəsi zamanı konsulluğun qarşısına minlərlə qərənfillərdən və uşaq oyuncaqlarından sanki dağ yaratmışdılar. Müharibə dövründə yeni xəbərlər almaq üçün təşvişlə, həyəcanla xəbərləri izləyirdilər. 44 günlük müharibədə xalqımızın Ali Baş Komandanı İlham Əliyev, ordumuz, xalqımız həmrəy olaraq zəfər qazandılar. Bu bizlərə qürur verdi, xalqımızın həmrəyliyi, birlikdə güclü olması vətəndən uzaqda yaşayan hər kəsi fəxarətə bürüdü.

Qələbə günü-Zəfər bayramı böyük sevinc ilə qeyd edildi. Torpaqlarımızı qanı ilə, canı bahasına alan şəhidlərimizi həmişə hörmətlə yad edirik. İgid əsgərlərimiz haqda həmişə danışırıq, onların hər kəsə örnək olduğunu təbliğ edirik.

Pandemiya ilə əlaqədar keçən il Həmrəylik Gününü ürəyimizcə qeyd edə bilməmişdik. Bu ilki həmrəylik Gününü isə igid əsgərlərimizin Ali Baş Komandan və xalqla birliyi kimi qəbul edərək, şəhidlərimizin xatirəsini yad etdik!

**Vəfa MƏCİDOVA,**
**İrkutsk şəhəri, müəllim.**



31 dekabr Dünya Azərbaycanlılarının həmrəyliyi günü olmağına və hər il bayram kimi qeyd edilməsinə baxmayaraq bu il bayramı qeyd etmirik. Ölkəmizdə bu qədər şəhid ola-ola, bu qədər ata-ana, bacı-qardaş ağlarkən bizə bayram etmək yaraşmaz. Harda yaşamağımızdan asılı olmayaraq körpələrimizə adət-ənənələrimizi, qanla yazılmış tariximizi başa salmalıyıq. "Körpələrə görə bayramı qeyd edirik" deyənlərə də sualım var. Bu gün deyil də bəs nə vaxt izah edəcəyik?

Bayram-əlbəttə yox. Buna haqqımız belə yoxdur. Allah cəmi şəhidlərimizə rəhmət eləsin. Yaralılara şəfa və şəhid ailələrinə səbr diləyirəm.

Mən üzüldüyüm qədər də fəxr edirəm ki, belə igid oğulların yaşadığı ölkədənəm. Polad kimi oğulların qohumu və həmyerlisiyəm.

Haqqınızı halal edin, Şəhidlərimiz! Biz hər günümüzü sizə borcluyuq. Məkanınız cənnət olsun... Ruhunuz qarşısında baş əyirik.

Mənə elə gəlir ki, bu boyda itki qarşısında bayram sözünün özü belə şəhidlərimizə hörmətsizlikdir.

**Afət NADİROVA,**
**ABŞ, Meyn ştatı, müəllimə.**

Xarici ölkədə yaşamaq cəlbedici görünsə də, xaricdə yaşayan azərbaycanlıların qarşısında həmişə bir sual durur: dilini, dinini, mədəniyyətini necə qoruyub saxlamaq və gənc nəslə ötürmək. Ona görə də, Azərbaycandan kənarda yaşayan həmvətənlərimiz adətən, icma halında formalaşaraq Azərbaycan mühitini məhdud çərçivədə də olsa yaratmağa çalışırlar.

Bizim ailəmiz artıq 11 ildir ki, ABŞ-ın şimal-şərqində yerləşən Meyn ştatında yaşayır. Bizim ştatda azərbaycanlı ailələr çox az sayda olsa da, tez-tez bir araya gəlib, Azərbaycanın milli bayramlarını, əlamətdar hadisələri bərabər qeyd edirik. Doğrudur, pandemiya başlayandan biz də karantin tələbləri çərçivəsində hərəkət edirik, lakin yenə də icma üzvləri arasında aktiv münasibətlər saxlayırıq.

Amerikada yaşayan azərbaycanlıları daha geniş miqyasda bir araya gətirən isə Azərbaycanla bağlı baş verən taleyüklü məsələlərdir. Əvvəllər də biz Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyinin geniş Amerika ictimaiyyətinə çatdırılması istiqamətində tədbirlərdə bir araya gəlirdik. Bu ilin sentyabr ayında 44 günlük ikinci Qarabağ müharibəsi - Böyük Vətən müharibəsinin başlaması isə əvvəllər bir-birlərini tanımayan Amerikada yaşayan minlərlə həmvətənlərimizi bir məqsəd ətrafında birləşdirdi: hər vasitə ilə Azərbaycana dəstək olmaq, Azərbaycanın haqq işinin Amerikada dəstəklənməsinə nail olmaq. Bəlkə də inandırıcı görünməz, ancaq 44 gün ərzində bizim üçün Amerikada baş verənlər tam arxa plana keçdi, 9 saat vaxt fərqi olduğuna baxmayaraq anbaan real vaxt rejimində Azərbaycanda baş verən hadisələri Azərbaycanın xəbər portallarından izləməyə başladıq. Bütün düşüncəmiz ordumuzun, xalqımızın yanında idi. Cəsur əsgərlərimizin qəhrəmanlığı bizi qürurlandırır, yaralanan, şəhid olan əsgərlər üçün dərindən üzülürdük. Vətən müharibəsində Azərbaycanın qalibiyyətinin memarı olan Ali Baş Komandan İlham Əliyevin siyasəti isə hamımızda fərəh doğururdu.

Biz müharibə dövründə Azərbaycandan uzaqda olsaq da, hər kəs bu ümummilli mübarizəmizə müxtəlif yollarla yardımçı olmağa çalışırdı. Amerikanın siyasi çevrələrinin və geniş ictimaiyyətinin baş verənlərlə bağlı düzgün məlumatlandırılması üçün sosial şəbəkələrdə məlumatlar yayır, ABŞ-ın icra orqanlarina, müxtəlif ştatlardan seçilmiş konqresmen ve senatorlara məktublarla müraciət edirdik. Biz başa düşürdük ki, bizim fəaliyyətimiz illər boyu Amerikada formalaşmış ermənipərəst mövqeyi dərhal dəyişməsə də, Azərbaycan əsilli seçicilərin mövqeyi bir çox hallarda konqresmen və senatorların ən azından neytral mövqe nümayiş etdirməsinə təsir göstərəcək. Qarabağ, Vətən müharibəsi nəinki Amerikada, bütün dünyada yaşayan azərbaycanlıların vahid Azərbaycan amalı ətrafında birləşməsinə səbəb oldu. Ümid edirəm ki, bu birlik uzunmüddətli olacaq və xalqımızın yeni-yeni nailiyyətlər əldə etməsinə xidmət edəcək.

**Afət SÜLEYMANZADƏ.**
**«Qəbələ»**